## GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN SƏMƏD VURĞUN HAQQINDA FİKİRLƏRİ

Səməd Vurğunun yaradıcılığı dəryadır, indiyədək yazılanlar bunun hamısını əks etdirə bilməyib. Hesab edirəm ki, onun yaradıcılığı və qoyduğu irs bu gün də, gələcəkdə də tədqiq olunacaq və bu barədə yeni-yeni əsərlər yaranacaqdır.Səməd Vurğun öz xalqının oyanışına, milli dirçəlişinə xidmət edibdir. S.Vurğun o vaxt bizim hamımız üçün nümunə – xalqına, millətinə,ölkəsinə, Vətəninə sədaqətlilikdə nümunə idi.

***

Biz Səməd Vurğunun ruhu qarşısında baş əyərək deyə bilərik: əziz şairimiz, sənin canın qədər sevdiyin Azərbaycan bu gün müstəqil dövlətdir.. Sənin canın qədər sevdiyin xalqın bu gün azaddır. Bu gün mən bir daha bəyan edirəm ki, biz Səməd Vurğunun ruhunu gələcəkdə də şad edəcəyik. Müstəqil Azərbaycan yaşayacaq. Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaqdır. Xalqımız daim sərbəst, öz taleyinin sahibi olacaqdır.

Yaşasın müstəqil Azərbaycan!
Yaşasın Səməd Vurğun yaradıcılığı!
Səməd Vurğuna eşq olsun!

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Ümummilli Lideri**

Səməd Vurğun Azərbaycanın ədəbi fikir salnaməsində yeni parlaq mərhələ başladan görkəmli sənətkardır. Çoxşaxəli fəaliyyətinin qayəsində azərbaycançılıq amalı dayanan şair nəğməkarı olduğu Odlar diyarını alovlu məhəbbətlə tərənnüm etmişdir. Onun dillər əzbərinə çevrilmiş "Azərbaycan" şeiri hər bir azərbaycanlının ürəyindəki Vətən sevgisinin poetik ifadəsidir. Böyük söz ustası ana dilinin saflığı uğrunda dönmədən mübarizə aparmış, xalq yaradıcılığının tükənməz xəzinəsindən bəhrələnməklə bu dilin bütün məna gözəlliklərini özündə əks etdirən, dərin bəşəri-ictimai məzmuna malik qiymətli əsərlər ərsəyə gətirmişdir. Səməd Vurğunun milli poeziyanı yüksəklərə qaldıran romantik və fəlsəfi məzmunlu bənzərsiz lirikası Azərbaycan ədəbiyyatının qızıl fonduna daxildir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Səməd Vurğun müasir Azərbaycan ədəbiyyatının parlaq nümayəndələrindən biridir. Mən deyərdim ki, nəinki parlaq nümayəndələrindən biri, hətta ən istedadlı nümayəndəsidir. Şairin şeirləri ana vətənə dərin hisslərlə, hədsiz məhəbbətlə doludur. O, şeir sənətinə mükəmməl yiyələnmişdir.

**Üzeyir Hacıbəyli,**
**Xalq artisti, akademik**

Səməd Vurğun poeziyası elə bir zirvə tutub ki, ikinci dəfə dünyaya gəlsə, özünün də əli o zirvəyə çatmaz. O, əsil poeziya dahisidir. Səməd Vurğun unudulmazdır. O, el məhəbbətini, elin rəğbətini daima onun uğrunda çırpınan ürəyi ilə qazanmışdır. Səməd Vurgun yalnız poeziya aləmində deyil, ümumən ədəbiyyatımızın ön cəbhəsində getmiş və ölməz bədii əsərləri, məruzə və nitqləri, məqalə və çıxışları ilə ədəbiyyatımızı və ictimai fikrimizi istiqamətləndirmişdir.

Yalnız müasir mövzuda deyil, tarixi mövzuda yazdığı əsərlərində də həmişə müasir olmuş, tarixi mövzuları da zamanın tələbləribaxımında işləmiş, bunlara bugünün gözü ilə baxmağı bacarmışdır.

**Bəxtiyar Vahabzadə,**
**Xalq şairi**

Bu görkəmli Xalq şairinin heç bir əsərini, heç bir misrasını, heç bir tədbirini xalq mənafeyindən ayrı düşünmək mümkün deyildir. Səmədin özü kimi əsərləri də, düşüncə və arzuları da qırılmaz tellərlə xalqa bağlıdır.

**Abdulla Şaiq,**
**şair, ədəbiyyatşünas**

Orduda belə bir qayda var: şəhid olan nadir qəhrəmanın adı hissənin siyahısında hər səhər yoxlama zamanı başda çəkilir. Ədəbiyyat ordumuzun işində də müasir şeirimizin qəhrəmanı Səməd Vurğun buna bənzər şərəfli bir yer tutmuşdur.

**Mir Cəlal,**
**Əməkdar elm xadimi, professor**

Səməd Vurğun ədəbiyyatımızın böyük istedadlı nümayəndəsi olmaqla bərabər nadir bir şəxsiyyət idi. Yüksək insani duy ğulara, böyük ürəyə malik idi. Sözü bir, özü bütöv adam idi. İnsanların həmişə yaxşı cəhətlərini görməyə çalışırdı.

**İlyas Əfəndiyev,**
**Xalq yazıçısı**

Səməd Vur ğun poeziyası – Azərbaycan xalqının məğrur ürək döyüntüsüdür. Xalq əbədi oldu ğu kimi, Vur ğun poeziyası da əbədi və ölməzdir. Milli sənətə dərin hörmət onu dünya sənətinə dərin köklərlə ba ğladı. Səməd Vur ğun milli oldu ğu qədər beynəlmiləl, beynəlmiləl oldu ğu qədər də milli sənətkardır!

**Nəbi Xəzri,**
**Xalq şairi**

Hər xalqın ədəbiyyatında elə yazıçılar var ki, birdən onların bir neçəsini ədəbiyyatdan götürsək, qətiyyən yeri görünməz. Lakin elə tək-təksənətkarlar var ki, onların birinin yoxluğu ilə bir xalqın ədəbiyyatındauçurum əmələ gələ bilər. Səməd Vurğun belə sənətkar, belə şəxsiyyətdir.Onsuz bizim ədəbiyyatdan danışmaq mümkün olmazdı.

**Mehdi Hüseyn,**
**Xalq yazıçısı**

Səməd Vurğun – xalqımızın qəlbində, ruhunda, mənəviyyatında müstəsna yer tutan sənətkardır. Səməd Vurğun təsəvvürümüzdə yalnız şair kimi deyil, əsatiri şəxsiyyət kimi canlanır.Xalqa vurğunluq, Vətənə vurğunluq kimi dərk olundu, dövrə, zamana vurğunluq keyfiyyətini kəsb etdi. Estetik mövqeyə çevrildi.

**Anar,**
**Xalq yazıçısı**

Səməd Vurğunun Azərbaycan qarşısında ən böyük xidmətlərindən biri, onun indiki ədəbi azəri türkcəsinin formalaşmasında apardığı mübarizədir. Dilimizin ifrat ərəb və farsçılıqdan qurtarmasında; qələbə ilə nəticələnmiş bir mübarizə. Və nə qədər ki, bu dil var, Səməd Vurğun adlı şair oxunacaq. Seviləcək və sevilməyəcək. Yəni yaşayacaq.

**Vaqif Səmədoğlu,**
**Xalq şairi**

Səməd Vurğun poeziyamızın nəhəng planetidir, bu planetin günəşi, ulduzları sönməzdir.

**Nazim Hikmət,**
**türk şairi, dramaturq**

Səməd Vurğun poeziyası milli teatr sənətimiz, milli kinomuz, televiziyamız, radiomuz və bir aktyor kimi mənim üçün idealdır. Ona doğru addımlamalaq sənətkar üçün əsl nemətdir, səadətdir.

**Həsən Turabov,**
**Xalq artisti**

Səməd Vurğun xalq yaradıcılığımızın forma, üslub xüsusiyyətlərindən böyük sənətkarlıqla istifadə etmiş, folklorumuzun rəngarəng formalarından yüksək istedadla bəhrələnmişdir.

**Paşa Əfəndiyev,**
**professor**

Dünya ədəbiyyatı tarixində Molla Pənah Vaqiflə Səməd Vurğun kimi müxtəlif epoxalarda yaşayıb ruhən, poetexnologiya etibarilə bir-birinə bu qədər sıx bağlı olan iki böyük şair təsəvvür etmək, yəqin ki, çox çətindir. XVIII əsr Azərbaycan poeziyasında yeni üslub-məktəb yaratmış, şeirin predmetini, ümumən gözəlliyini göylərdən yerə endirmiş sənətkarın yaradıcılıq şəxsiyyətində nə hikmət vardı ki, XX əsrin milli şair-mütəfəkkirini məftun etmişdi?

**Nizami Cəfərov,**
**akademik**

Səməd Vurğun Azərbaycan poeziyasının əfsanəsidir.Səməd Vurğun Azərbaycan ədəbiyyatında yeni məktəb yaratmış fenomen şəxsiyyətlərdən biridir.Onun yaradıcılığı milli ədəbiyyatın klassik ənənələri ilə müasir düşüncənin sintezidir. Səməd Vurğunun ədəbi məktəbi ilk növbədə çoxəsrlik ədəbi ənənələrin müasirliklə üzvi şəkildə əlaqələndirilməsi və yeniləşdirmə imkanlarının genişləndirilməsi əsasında formalaşmışdır.

**İsa Həbibəyli,**
**akademik**

Səməd Vurğun poeziyası elə bir zirvə tutub ki, ikinci dəfə dünyaya gəlsə, özünün də əli o zirvəyə çatmaz. O, əsil poeziya dahisidir. Səməd Vurğun Azərbaycan ədəbiyyatının inkişafında yeni mərhələ açmış, milli poeziyanı ideya və sənətkarlıq baxımından yüksək səviyyəyə qaldırmış şairdir.

**Cəfər Xəndan,**
**professor**

Azərbaycan şeirinin yaradıcılarından biri olan, əsərlərilə çoxmillətli sovet poeziyasının fondunu zənginləşdirən xalq şairi Səməd Vurğun qiymətli ədəbi irs qoyub gedib. Şairin poeziya və dram əsərləri Azərbaycan ədəbiyyatının inkişafında misilsiz rol oynayıb, xalqının həyatına və mənəviyyatına dərin köklərlə bağlanıb. O, bütün varlığı ilə doğma Azərbaycan xalqının adət və ənənələri ilə bağlı olan, xalqın ən gözəl sifətlərini hamıdan artıq duyan və hamıdan çox sevən bir sənətkar olub. Onun yaradıcılığı yalnız Azərbaycan xalqı üçün deyil, bütün sənət və həqiqət aşiqləri üçün qiymətli və əzizdir.

Biz bu tarixi şəxsiyyətimizin xidmətlərini həmişə yad etməyə borcluyuq.

Allah rəhmət eləsin.

**Fazil Qaraoğlu,**
**professor**

Qeyri-adi poetik istedada malik olan Səməd Vurğun fəlsəfi poeziya ustası idi. Azərbaycan poeziyasında fəlsəfi xətt şairlərin fəlsəfi fikir söyləmək, bir filosof kimi düşünmək meyli artıq bir ənənə halını almışdır. Nizami, Füzuli, Nəsimi, Hadi, Cavid kimi ölməz söz ustaları haqqında söz açılanda, onları filosof şair kimi də təqdim edirik. Onlar filosofların həyat, varlı-yoxluq, ölüm, dünya, kainat, cəmiyyət, Tanrı, gözəllik haqqında düşüncələrini poeziya dili ilə ifadə etmişlər, yəni burada poeziyadan fəlsəfiyə doğru bir keçid var. Səməd Vurğun da bir çox şeirlərində həyat hadisələrinə fəlsəfi yüksəklikdən baxırdı.

**Yusifli, Vaqif Əziz oğlu,**
**professor**

Səməd Vurğunu yaxından tanıyan məsləkdaşlarının memuarlarında, xatirələrində, şairin xarakterinə xas xüsusiyyətlər vurğulanarkən onun inadkarlığı, əzmi, cəsarəti haqqında təqdim olunan örnəklər, nümunələr şeirlərindəki poetik qüdrətin, məğrurluğun rişələrini, qaynaqlarını özündə yuvalandırır, nişan verir. Onun şəxsiyyəti ilə şeiriyyətinin vəhdətini şərtləndirən monolitlik, bütövlük, sarsılmazlıq tarixi-ədəbi mühitin mənəviyyat meyarı, sənət etalonu adlandırılmağa layiqdir. Vurğun inadkarlığında özünəgüvən, sözünə əminlik, haqqa, həqiqətə inam çırpınır, təcəssüm tapır.

**Asif Rüstəmli,**
**professor**

Səməd Vurğun dahi şair olmaqla bərabər, həm də böyük vətəndaş idi. O, bir çox kimsəsiz insana bacardığı qədər kömək etmiş, hətta qardaşına yazdığı məktublardan birində özünü əzilənlərin hamisi adlandırmış və bunu əsrin bəbəyinə sancacağına and içmişdi. Müasirləri onda həqiqətən də, bu xüsusiyyətlərin mövcud olduğunu bildirirlər.

**İlyas İsmayılov,**
**professor**

Səməd Vurğun böyük şair olduğu kimi, eyni çəkidə böyük alim, mütəfəkkir idi. Müraciət etdiyi humanitar fikrin nəzəri, tarixi və müasir problemlərini onun qədər qlobal elmi-ədəbi düşüncə müstəvisində təhlil edən fitri istedad sahibi tarixin nadir zaman kəsiyində yetişir. XX əsr Azərbaycan humanitar fikri bütün istiqamətləri ilə bu böyük şəxsiyyətin cazibəsində olmuşdur. Yaradıcılıq metodu, yaradıcılıq psixologiyası (şairin hüquqları), poeziyanın, tərcümə sənətinin mübahisələrə çevrilən ən mürəkkəb problemləri haqqında Səməd Vurğunun fikirləri çox zaman yekun sözü kimi qəbul edilirdi.

**Şirindil Alışanlı,**
**professor**

Səməd Vurğun mərd şair olub, mərd yaşayıb, mərdanə də yazıb-yaradıb. Mərd şairi olmayan xalqdan da yazıq xalq xəyala gətirmək çətindir…

**Kamil Vəliyev,**
**filologiya elmləri doktoru**

Ümumiyyətlə, Azərbaycan ədəbiyyatında şair obrazı yaratmaq istəsək, Səməd Vurğun istər ədəbiyyatdakı mövqeyi ilə, istər sanbalı ilə, ağırlığı ilə o obrazı tam şəkildə ifadə edə, arxetip səviyyəsinə qaldıra bilər.

**Qaragözova Elnarə,**
**filologiya üzrə fəlsəfə doktoru**

Xalq şairi Səməd Vurğunun həyat və yaradıclığı, dramaturgiyası, poeziyası, ayrı –ayrı dram əsərləri, poeziyasının xüsusiyyətləri barədə onlarca disertasiya və monoqrafiyalar, yüzlərcə məqalə, minlərcə xatirə və oçerklər yazılıb və əminəm ki, indən sonra da yazılacaqdır.

***Ramiz Göyüş,***
***yazıçı-publisist.***